**Xidmətlərin qısa təsviri**: Müşahidə tədqiqatları

**İcra müddəti:** 2009-2014-cü illərdə 9 iş ayı

**Məsləhətçi xidmətlərini icra edəcək şirkət üçün ixtisas tələbləri:**

• təhsil sektorunda, sinif otaqlarında müşahidələrin tərtib edilməsi və həyata keçirilməsi sahəsində geniş təcrübə;

• müşahidənin rəqəmli nəticələrini təhlil etmək məqsədilə keyfiyyətli məlumat bazasının ilk növbədə Azərbaycan dilində tərtib edilməsi sahəsində geniş təcrübə;

• təhsil sektorunun monitorinqi və dəyərləndirilməsi sahəsində məsləhətçi xidmətləri göstərmək üçün lazım olan, xüsusilə əsas icra keyfiyyəti göstəricilərinin mənasını başa düşən ixtisaslı heyətə və digər vəsaitlərə, habelə müvafiq təcrübəyə malik olmalı;

• sosial xidmət sektorlarında beynəlxalq donorlar tərəfindən maliyyələşdirilən layihələrdə iş təcrübəsi rəğbətlə qarşılanır.

Təhsil Nazirliyi müvafiq şirkətləri təsvir olunan xidmətlərin həyata keçirilməsində maraqlı olduqlarını ifadə etməyə dəvət edir. Şirkət Dünya Bankının "Məsləhətçilərin Borcalanlar tərəfindən Seçimi və İşə Götürülməsi" təlimatlarının cari buraxılışında müəyyən edilən qaydalarla seçiləcəkdir.

Xidmətlərə maraq göstərən şirkətlər ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri sentyabrın 23-nə qədər qeyd olunan ünvana təqdim etməlidirlər.

• müraciət məktubu;
• yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
• müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
• nizamnamə.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi,**
**Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin Əlaqələndirmə Qrupu,**
**AZ 1008, Bakı şəhəri, Xətai prospekti, 49.**

**Əlaqələndirici şəxs: Sevil Məsimova**
**Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68**
**Email:** smasimova@ultel.net